

Əl işdən soyumaz, ürək arzudan...

# QƏBƏLƏ

ictimai-siyasi qəzet

№ 27-28 (7548-7549) * 1933-cü ildən nəşr olunur * Çərşənbə axşamı, 4 iyun 2019-cu il. news@qebele-ih.gov.az


## PREZİDENTİN İŞ GÜNDƏLİYİNDƏN

***31 may***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından Polşa Respublikasının Prezidenti Andjey Dudanın şərəfinə rəsmi ziyafət verilib.

* * *

Bakıda Polşa memarlarının xatirəsinə həsr edilən lövhələrin açılış mərasimi keçirilib. Paytaxtın Polşa memarları küçəsində keçirilən mərasimdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Polşa Respublikasının Prezidenti Andjey Duda iştirak ediblər.

* * *

Bakıda Heydər Əliyev Mərkəzində Azərbaycan-Polşa biznes forumu keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Polşa Respublikasının Prezidenti Andjey Duda biznes forumda iştirak ediblər.

* * *

Azərbaycan Respublikası ilə Polşa Respublikası arasında sənədlərin imzalanması mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Polşa Respublikasının Prezidenti Andjey Duda mətbuata bəyanatlarla çıxış ediblər.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Polşa Respublikasının Prezidenti Andjey Dudan arasında təkbətək və nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüş olub.

***30 may***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ATƏT-in Minsk qrupunun Fransadan olan həmsədri Stefan Viskontini, Rusiyadan olan həmsədri İqor Popovu, ABŞ-dan olan həmsədri Endrü Şoferi və ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anji Kaspşiki qəbul edib.

***29 may***

Bakı Olimpiya Stadionunda keçirilən UEFA Avropa Liqasının final qarşılaşmasının qalibi "Çelsi" komandası olub. Londonun "Arsenal" və "Çelsi" komandaları arasında baş tutan maraqlı final oyununa Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri də baxıblar.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Avropa Futbol Assosiasiyaları Birliyinin (UEFA) prezidenti Aleksandr Çeferinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

**İlham ƏLİYEV:** *Azərbaycanın gərək hər bir bölgəsində, hər bir rayonunda, hər bir kəndində quruculuq və abadlıq işləri aparılsın. İnsanlar daha da yaxşı yaşasınlar və Azərbaycan dövləti daha da möhkəmlənsin. Buna nail olmaq üçün əlimizdən gələni əsirgəməməliyik.*

# Azərbaycan Respublikası Prezidentinin qayğısı regionların iqtisadi gücünü artırmış, sosial simasını dəyişmişdir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü və rəhbərliyi ilə 2004-cü ildən başlayaraq ölkəmizdə regionların sosial-iqtisadi inkişafı dövlət proqramları qəbul edilir və icra olunur. Bu proqramların icrası Azərbaycanın iqtisadi qüdrətini artırmaqla yanaşı regionların simasını başdan-başa dəyişir, vətəndaşların məşğulluğunu təmin edir, rifahını yüksəldir.

Regionların sosial-iqtisadi inkişafı ilə əlaqədar proqramların icrası nəticəsində bölgələrdə kiçik, orta və iri sahibkarlıq inkişaf etmiş, cəlbedici və eyni zamanda dünya standartlarına cavab verən turizm infrastrukturu yaranmış, aqrar sektorda məhsul istehsalı dəfələrlə çoxalmışdır.

Regionlarda iqtisadi sahədə əldə olunan inkişaf sosial sahələrə də öz müsbət təsirini göstərmişdir. Paytaxtımızla bərabər bölgələrdə minlərlə təhsil və səhiyyə ocağı tikilmiş, təmir olunmuş, on min kilometrlərlə rahat yollar salınmışdır.

Ölkə başçısı regionların sosial-iqtisadi inkişafı ilə əlaqədar qəbul edilmiş dövlət proqramlarının icrasına şəxsən özü nəzarət edir. Təsadüfi deyil ki, dövlətimizin başçısı regionların inkişafı ilə əlaqədar proqramların qəbul edildiyi və icra olunduğu dövrdən bəri yerlərdə 2000-ə yaxın istehsal xarakterli müəssisənin, təhsil və səhiyyə ocağının digər infrastruktur obyektlərinin açılışında və ya təməlqoyma mərasimində iştirak etmişdir.

Prezident İlham Əliyev regionların inkişafı ilə əlaqədar qəbul edilmiş proqramlardan əlavə yerlərdən olan müraciətləri nəzərə alaraq, proqramların icrasının daha da sürətləndirilməsi məqsədilə 650-dən çox sərəncam imzalamışdır.

Dövlət proqramlarının uğurla icra edilməsinin nəticəsidir ki, 2004-2018-ci illərdə ölkədə ümumi daxili məhsul 3,3 dəfə, o cümlədən qeyri-neft sektorunda 2,8 dəfə artmışdır. Ölkənin iqtisadi təhlükəsizliyinin təminatı olan strateji valyuta ehtiyatı da 2004-cü ilə nisbətən 24,3 dəfə artaraq 1 yanvar 2019-cu ilə 45 milyard ABŞ dolları səviyyəsini keçmişdir.

Regionların sosial-iqtisadi inkişafı proqramlarında qeyri-neft məhsulları istehsalının artırılması, bu məhsullarla yerli tələbatı ödəməklə yanaşı ixrac xarakterli məhsulların da çoxaldılması əsas yer tutur. Bunun nəticəsidir ki, artıq ticarət obyektlərində yerli istehsala məxsus malların xüsusi çəkisi önəmli dərəcədə artmışdır. İxrac olunan qeyri-neft məhsulları 2004-cü illə müqayisədə 4,2 dəfə çoxalmışdır ki, bunun əsas hissəsi regionların payına düşür.

Dövlət proqramları yerlərdə sahibkarlığın inkişafına güclü təkan vermişdir. Nəticədə 2003-cü ildə sənaye məhsulu istehsalında özəl sektorun payı 56,8 faiz idisə, hazırda bu rəqəm 80 faizə çatmışdır.

Məlumdur ki, regionlarda aqrar sahənin xüsusi çəkisi yüksəkdir. Buna görə də dövlət proqramlarında aqrar sektorun inkişafına böyük yer ayrılıb. Proqramlarda aqrar sahənin inkişafı üçün nəzərdə tutulan tədbirlər ölkədə ərzaq təhlükəsizliyinin tam və davamlı təmin olunmasına hesablanıb. Bu məqsədlə ölkədə bitkiçilik və heyvandarlıq sahələri xüsusilə inkişaf etdirilmiş, iri fermer təsərrüfatları, aqroparklar yaradılmış, kənd təsərrüfatının maddi-texniki bazası möhkəmlənmişdir.

Ölkə Prezidentinin sərəncamı ilə kənd təsərrüfatı məhsulları istehsalçıları subsidiyalarla hər tərəfli dəstəklə əhatə olunmuşdur. Azərbaycan bəlkə də dünyada yeganə dövlətdir ki, kənd təsərrüfatı məhsulları istehsalı vergidən azaddır. Bu da kənd təsərrüfatında çalışan hər bir hüquqi və fiziki şəxs üçün, hər bir kəndli üçün böyük stimul yaradır.

**"Qəbələ"**